Ən çox oxunan qəzet

№ 70 (4765), 2018-ci il

Qiyməti 30 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

www.sherg.az

20 aprel (cümə)



## Bakıda faciə...

Şair avtobusun altında qalaraq ölüb

**Bakıda ölümlə nəticələnən yol qəzası baş verib.** Lent.az xəbər verir ki, Mehdiabad qəsəbəsi ərazisində 1988-ci il təvəllüdlü Aydın Kərimov idarə etdiyi "İsuzu" markalı, 01 BU 984 dövlət qeydiyyat nişanlı marşrut avtobusu ilə Şəki rayon sakini, 1975-ci il təvəllüdlü Araz Səmədi vurub. Ağır xəsarət alan A.Səmədin həyatını xilas etmək mümkün olmayıb.

(Səh.9)

## Bakıda yarış var



Rayon qeydiyyatlı avtomobillərin şəhərə girişi məhdudlaşdırılacaq

Növbəti "Formula 1 Azərbaycan Qran Prisi" yarışları ilə əlaqədar olaraq, Bakıda nəqliyyat sıxlığının azaldılması məqsədilə xüsusi təyinatlı, o cümlədən qəza-bərpa və xilasedici, həmçinin kənd təsərrüfatı məhsullarını daşıyan bütün növ nəqliyyat vasitələrinin hərəkəti istisna olmaqla, paytaxtda qeydiyyatda olmayan minik və yük avtomobillərinin şəhərə girişinə aprelin 23-dən məhdudiyyət tətbiq ediləcək.

(Səh.4)

# Generallar Bakıda razılığa gəliblər





## Gələcəkdə də hərbi xətlə əlaqələrdən istifadə davam etdiriləcək

**Rusiya baş qərargah rəisi və NATO-nun Avropada Birləşmiş Hərbi Qüvvələr baş komandanının Bakıda görüşü keçirilib.** Görüşdə tərəflər Rusiyanın Avropa regionunda hərbi fəaliyyəti və insidentlərin qarşısının alınmasını müzakirə ediblər. Siyasətçilər isə bu görüşün Bakıda keçirilməsinin böyük əhəmiyyət daşıdığını və ölkəmizin beynəlxalq nüfuzunun yüksək olmasının göstəricisi olduğunu bildirir.

(Səh.3)



## Generallar ev sahibliyinə görə İlham Əliyevə minnətdarlıq edib

Prezident Valeri Gerasimov və Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb

**Prezident İlham Əliyev dünən Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, müdafiə nazirinin birinci müavini Valeri Gerasimovu qəbul edib.**

Valeri Gerasimov İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib və bu seçkiləri xalqın dövlətimizin başçısına olan böyük etimadının göstəricisi kimi qiymətləndirib. Azərbaycan Prezidenti təbriklərə görə minnətdarlığını bildirib.

(Səh.2)

## Akif Aşırlı Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib



"Şərq" qəzetinin baş redaktoru, Mətbuat Şurası İdarə heyyətinin üzvü Akif Aşırlı Azərbaycan Prezidenti cənab İlham Əliyevi prezident seçilməsi münasibəti ilə təbrik edib.

(Səh.2)

Günün içindən · Günün içindən · Günün içindən · Günün içindən



## 100 milyon manat vəsait tələb olunacaq

Hərbi əməliyyatlarda həlak olan 8800 nəfərin ailəsinə 11 min manat veriləcək

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.**

Əmək və əhalinin sosial müdafiəsi naziri vəzifələrinin icra edən Səlim Müslümov mətbuat konfransında çıxışı zamanı bildirib.

(Səh.2)



## Ermənistan prezidenti tərəfləri dialoqa çağırıb

# Polis etirazçılara qoşula bilər

(Səh.3)